## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

## LƏTİF KƏRİMOV ADINA AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİ



Lətif Kərimovun təşəbbüsü ilə 1967-ci ildə Bakıda xalça muzeyi təşkil olunmuş, dünyada xalça sənəti üzrə ixtisaslaşmış ilk muzeydir. Hazırda Dənizkənarı Milli Parkda, açılmış xalça formasındakı özünəməxsus binada yerləşir. Muzeydə Azərbaycanın 7 əsas xalçaçılıq məktəbini təmsil edən zəngin kolleksiya qorunur. Muzeyin binası dünyanın ən maraqlı memarlıq nümunələrindən biridir. Avstriyalı memar Frans Yans tərəfindən layihələndirilmiş bina bükülmüş xalça formasındadır. Bu qeyri-adi memarlıq həlli Azərbaycan xalçaçılıq sənətinin rəmzinə çevrilmişdir və Bakının ən məşhur turizm məkanlarından biri hesab edilir. Muzeyə 1993-cü ildə Lətif Kərimovun adı verilmişdir. Bina 2014-cü ildə istifadəyə verilmişdir.1993-cü ildən 2014-cü ilə kimi Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi adını daşıdı. 2019-cu ildən Azərbaycan Milli Xalça Muzeyi adlanır.

## LƏTİF KƏRİMOV ADINA AZƏRBAYCAN XALÇAÇILIQ FONDU

Lətif Kərimov adına Azərbaycan Xalçaçılıq Fondu Azərbaycan xalçaçılıq sənətinin qorunması, təbliği və inkişafına xidmət edən qeyri-hökumət təşəbbüslərindən biri olmuşdur. Fond görkəmli xalçaçı-rəssam, sənətşünas alim Lətif Kərimovun zəngin elmi və bədii irsini yaşatmaq, milli xalçaçılıq ənənələrini gələcək nəsillərə çatdırmaq məqsədilə yaradılmışdır. Fond 21 noyabr 2007-ci ildə təsis edilmişdir. Onun yaradılması ilə bağlı məlumat həmin dövrün mətbuatında dərc olunmuşdur.

## LƏTİF KƏRİMOVUN QƏBİRÜSTÜ ABİDƏSİ

